*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 76-81* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.76*

# Klassisizmin poetik prinsipləri və bioqrafik romanda təzahürü

**Nigar İsayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, dissertant
E-mail: nisayeva82@gmail.com

**Annotasiya.** Bu məqalədə XVII-XVIII əsrlərdə Fransada ədəbi və estetik sistem kimi yaranan klassisizmin əsas poetik prinsipləri nəzərdən keçirilir, onun qədim Yunanıstan və Romadakı fəlsəfi və mədəni kökləri izlənilir, həmçinin bioqrafik roman janrında sonrakı təzahürləri təhlil edilir. Klassisizm yalnız tarixi bir ədəbi cərəyan kimi deyil, həm də insanın daxili və xarici aləmində harmoniya, nizam, ağıl və mənəvi kamillik arzusunun bədii əksi kimi təqdim olunur. Məqalədə klassisizmin əsas estetik meyarları – "üç vahidlik prinsipi" (vahid zaman, məkan, hərəkət), personajların sosial və mənəvi funksiyalarına görə iyerarxik quruluşu, həmçinin ədəbiyyatın təhsil missiyasını önə çıxaran mimesis (təqlid) və katarsis (ruhun təmizlənməsi) təhlil edilir. Bu prinsiplərin nəzəri əsasını Aristotelin "Poetika"sı təşkil edir, praktiki tətbiqi isə Fransanın klassik dramaturqları – Nikola Bualo, Pyer Kornel, Jan Rasin və Molyer tərəfindən həyata keçirilmişdir.
Məqalənin məqsədi klassisizmin bioqrafik roman janrında necə davam etdiyini və müasir rus, Azərbaycan ədəbiyyatında necə yenidən təsəvvür edildiyini göstərməkdir. A.Varlamovun "Viktor Vasnetsov", "Maksim Qorki" kimi bioqrafik əsərləri, B.K.Zaytsevin "İvan Turgenev" bioqrafiyası və M.A.Bulqakovun "Master və Marqarita" kimi əsərlərinin təhlilinə əsaslanaraq, müasir yazıçıların klassik idealları - harmoniya, tarazlıq, fəzilət və tarixin mənəvi anlayışını müasir kontekstdə necə dəyişdirdiyini göstərir. Təhlillərə əsasən demək olar ki, bu yazarlar tarixi şəxslərin həyatlarını yalnız xronoloji hadisələrin təsviri ilə məhdudlaşdırmır, əksinə, onların həyatlarında klassik dəyərlərin təmsilçiliyini, yaxud onlarda mənəvi dəyərlərin necə davam etdiyini vurğulayır. Xüsusilə, Bulqakovun əsərində Ponti Pilat və Master obrazları vasitəsilə tarix, vicdan, ədalət və mənəvi saflıq mövzuları klassik fəlsəfi dramaturgiyanın əbədi mövzuları ilə paralel şəkildə araşdırılır.
**Açar sözlər:** klassisizm, poetika, Aristotel, bioqrafik roman, poetik prinsiplər

**Məqalə tarixçəsi:** göndərilib – 07.10.2025; qəbul edilib – 28.10.2025

# Poetic principles of classicism and its expression in a biographical novel

**Nigar Isayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, dissertator
E-mail: nisayeva82@gmail.com

**Abstract.** This article examines the main poetic principles of classicism as a literary – aesthetic system that emerged in France in the $17^{th}$-$18^{th}$ centuries, its philosophical – cultural roots are traced to ancient Greece and Rome, and its later manifestations in the biographical novel genre are analyzed. Classicism is presented not only as a historical literary movement, but also as an artistic reflection of the desire for harmony, order, reason, and spiritual perfection in the inner and outer world of man. The article provides the main aesthetic concepts of classicism – the "principle of three unities" (united time, space, and action), the hierarchical structure of characters according to their socio-moral functions, the concepts of mimesis (imitation) and catharsis (purification of the soul), which emphasize the educational mission of literature. The theoretical basis for these principles is Aristotle's Poetics, and their practical application was carried out by classical playwrights of France – Nicolas Boileau, Pierre Corneille, Jean Racine, and Molière.

The aim of the article is to show how classicism continues in the genre of the biographical novel genre and how it is transformed in contemporary Russian and Azerbaijani literature. Based on the analysis of biographical works such as A.Varlamov's "Viktor Vasnetsov", "Maxim Gorky", B.K.Zaitsev's "Ivan Turgenev", and M.A.Bulgakov's "The Master and Margarita", the study shows how modern writers have transformed the classical ideals - harmony, balance, virtue, and the moral understanding of history – in a contemporary context. Analysis show that these writers do not limit themselves to describing the lives of historical figures only with chronological events, but rather emphasize the representation of classical values in their lives, or how the moral core continues from them. In particular, in Bulgakov's work, the themes of history, conscience, justice, and moral purity are illuminated in parallel with the eternal themes of classical philosophical dramaturgy through the images of Pontius Pilate and the Master.
**Keywords:** classicism, poetics, Aristotle, biographical novel, poetic principles

**Article history:** received – 07.10.2025; accepted − 28.10.2025

## Giriş / *Introduction*

XVII-XVIII əsrlərin ən mühüm ədəbi istiqamətlərindən biri kimi Avropa mədəniyyətinin formalaşmasına dərin təsir göstərmişdir. Bu cərəyanın əsasını antik dövrün fəlsəfi və estetik prinsipləri təşkil edir. "Klassik" termini latın dilində *classicus* – "nümunəvi" sözündən götürülmüşdür və bədii-fəlsəfi düşüncə sistemində nizam, ölçü, harmoniya prinsiplərinin təcəssümü kimi səciyyələndirilir. Klassisizm insan ağlının üstünlüyünü, formanın dəqiqliyini və mənəvi tərbiyəni ön plana çəkir. Aristotelin "Poetika"sında əsaslandırılan mimesis və katarsis ideyaları sonrakı əsrlərdə "üç vahidlik prinsipi" ilə birlikdə bu istiqamətin əsas bədii qanunlarına çevrilmişdir. Fransada Nikola Bualo, Pyer Kornel, Jan Rasin və Molyer kimi sənətkarların yaradıcılığı klassisizmin nəzəri və praktik əsaslarını möhkəmləndirmişdir.

Məqalədə klassisizmin poetik prinsiplərinin bioqrafik roman janrında necə təzahür etdiyi araşdırılır. A.Varlamov, B.K.Zaytsev və M.A.Bulqakovun əsərləri əsasında klassik idealların müasir ədəbi düşüncədə yenidən canlandırılması və harmoniyaya canatma ideyasının bəşəri dəyər kimi qorunması təhlil olunur.

## Əsas hissə / *Main part*

XVII-XVIII əsrlərin ən mühüm ədəbi istiqamətlərindən olan klassisizm Fransada yaranmış və bütün Avropa mədəniyyətinə dərin təsir göstərmişdir. Klassisizm antik dövrün ideallarına, ağla və nizama əsaslanır, formanın aydınlığına, insanın mənəvi tərbiyəsini göstərməyə çalışırdı. "Klassik" sözü latınca *classicus* – "nümunəvi" mənasını verir və ilk növbədə Qədim Yunan və Roma mədəniyyətinə istinad edir. Antik ədəbiyyat tarixi klassisizmin bir mərhələsi deyil, əksinə onun qaynağı, ölçü meyarı və ideal nümunəsidir. Antik estetik normaları müəyyən edən əsas nəzəri əsər Aristotelin "Poetika"sı (e.ə. IV əsr), Sofokl və Senekanın faciələri oldu. Burada ilk dəfə həqiqəti təqlid (mimesis) ideyası aydın şəkildə formalaşdırılır, faciənin quruluşu, katarsis (qorxu və rəhm vasitəsilə təmizlənmə) anlayışının vacibliyi təhlil olunur. "Faciə müəyyən həcmdə ciddi və tam bir hərəkətin müxtəlif formalarda, ayrı-ayrı hissələrdə, nitqlə bəzədilmiş şəkildə canlandırılmasıdır, bu cür hissləri mərhəmət və qorxu ilə saflaşdıran hekayə deyil, hərəkətin reproduksiyasıdır" [1]. Bu müddəalar sonradan "üç vahidlik prinsipi"nin (vahid məkan, vahid zaman, vahid hərəkət) əsasını qoydu. Fransız klassikləri, xüsusilə Nikola Bualo, bunu bir doqmaya çevirərək tətbiq etdilər. XVII əsrin ortalarında meydana gələn Fransa klassisizmi XIX əsrin əvvəllərinə qədər uzun bir inkişaf mərhələsi keçmişdir. Bu cərəyan Fransada mütləq monarxiyanın çiçəklənmə dövründə formalaşaraq inkişaf etmişdir. Öz əsas qaynaqlarını antik ədəbiyyatdan, həmçinin Roma və qədim Yunan

incəsənətindən alan "üç vahidlik prinsipi" – məkan, zaman və hərəkət vahidliyi – bədii strukturun formalaşmasında mühüm rol oynamışdır. Əsərlərdə bu prinsiplər süjetin məntiqini, hadisələrin zaman və məkan çərçivəsini müəyyənləşdirirdi. Fransız klassisizminin əsas nümayəndələri arasında Pyer Korneli, Jan Rasin, Molyer kimi dramaturqlar, Nikola Bualo kimi nəzəriyyəçilər xüsusi yer tutur. Fransız klassisizminin əsas nəzəri əsəri Nikola Bualonun "Poeziya sənəti" (1674) traktatı oldu. Bu əsərdə müəllif cərəyanın əsas estetik prinsiplərini müəyyənləşdirmişdir. Üç vahidlik – zamanın, məkanın və hərəkətin ciddi şəkildə qorunması; obrazların ictimai vəziyyətlərinə görə, "yuxarı" və "aşağı" qruplara bölünməsi, həmçinin ədəbiyyatın mənəvi və tərbiyəvi funksiyanı yerinə yetirməli olması fikirləri yer alır. Bualo fransız ədəbiyyatında ədəbi zövqləri və qanunları formalaşdıraraq yaradıcılıq üçün aydın qaydalar müəyyən etmişdir. O belə yazırdı: "Ağlınız həmişə sizin rəhbəriniz olsun..... Sənət oyun deyil, əqlin ciddi əməyidir" [2].

Klassisizm dramaturgiyada ən parlaq şəkildə özünü göstərmişdir. Pyer Kornel və Jan Rasinin faciə janrında yazdığı əsərlər hiss və vəzifə öhdəlikləri arasında olan ziddiyyəti əsas götürür; qəhrəman şəxsi xoşbəxtliyindən imtina edərək, ictimai qaydanı qorumağa üstünlük verir. Kornelin "Sid" (1637) faciəsində baş qəhrəman Rodriq Ximenəyə olan məhəbbəti ilə atasının şərəfini qorumaq borcu arasında seçim etməli olur. Onun məşhur replikası – "Gedirəm, amma kim olaraq qayıdacağımı bilmirəm" – borcun xeyrinə həll olunan daxili mübarizəni simvollaşdırır [3]. Jan Rasini beş pərdədən ibarət "Fedra" (1677) əsərində faciə janrının imkanlarından istifadə edərək, obrazların psixoloji dünyasını daha dərindən açmış, eyni zamanda da klassik estetik çərçivələrə sadiq qalmışdır. Fedra, Hippolitə qarşı hiss etdiyi qadağan olmuş məhəbbəti nəhayət etiraf edir. "Borc və şərəf – budur, mənim Tanrılarım" [4]. Fedranın hiyləsi Hippolitin ölümünə və ailəsinin məhvinə səbəb olur. O, yalanlarının günahsız insanların həyatını məhv etdiyini başa düşür və ölümü günahlarının kəffarəsi kimi görür. Onun həlak edilməsi şəxsi faciə deyil, mənəvi və sosial qaydalara qarşı çıxmağın cəzasıdır.

Komediya janrında klassisizm Molyerin yaradıcılığında davam etdi. O, klassik komediya janrının banisi hesab olunur. "Molyerə görə komediya qarşısında iki vəzifə durur: nəsihət vermək və əyləndirmək. Əgər komediya ibrətamiz elementlərdən məhrum edilsə, o, mənasız masqaraya çevriləcək, əgər ondan əyləndirici funksiyanı alsaq, komediya əxlaqi bir əsərə yerini vermiş olacaq. Dramaturq öz satirasının ictimai əhəmiyyətini çox gözəl başa düşürdü: Molyerə görə, ən yaxşısı onun edə bildiyidir – bu onun dövrünün nöqsanlarını gülünc təsvir edərək ifşa etməkdir. Real zarafatlarında, səhnə həqiqətlərində Molyerin cazibəsi bütünlüklə aydındır, amma zaman, zövq, əsr anlayışı ona Şekspir zirvəsinə qalxmaq üçün öz istedadını göstərməyə imkan vermir" [5]. Onun pyesləri – "Tartüf", "Mizantrop", "Xəsis" satiradan və real obrazlardan zəngin olsa da, eyni prinsiplərə tabedir: vahid əməl, mənəvi dərs, aydın kompozisiya.

Mixail Vasilyeviç Lomonosov (1711-1765) rus mədəniyyəti tarixinə təkcə görkəmli ensiklopedist alim kimi deyil, həm də milli klassisizmin əsl yaradıcısı kimi daxil olmuşdur. Onun "üç üslub" nəzəriyyəsi [6] sadəcə, linqvistik konsepsiya deyildi – bu dili yüksək, orta və aşağı üslublara bölməklə, Lomonosov əslində yazıçılara ifadə formasını əsərin məzmunu ilə dəqiq uyğunlaşdırmağa imkan verən alət yaratdı. Yüksək üslub qəhrəmanlıq poemalarına və odalara, orta üslub teatr əsərlərinə və elmi nəsrə, aşağı üslub isə komediyalara və məktublara nəzərdə tutulurdu. Həmçinin rus klassik ədəbiyyatının əsasını formalaşdıran Qavrila Derjavin və Aleksandr Sumarkovun çox mühüm rolu olmuşdur. Onlar fransız və latın ədəbiyyatının nümunələrinə əsaslanaraq, poetik formaları, janrları və bədii üslubu rus dilinə uyğunlaşdırdılar. XVIII əsr rus ədəbiyyatında Avropa klassisizminin təsiri nəticəsində nizam, ahəng və məntiq prinsiplərinin üstünlük təşkil etdiyi bir mərhələ kimi xarakterizə olunur.

Klassisizmin təsiri dünya ədəbiyyatında dərin iz buraxmış, bir çox ölkələrdə milli ədəbiyyatın formalaşmasında mühüm rol oynamışdır. XIX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatı üçün yeni dövrün başlanğıcı olmuşdur. Quzey Azərbaycanın Rusiya imperiyasına qoşulması (1813 – "Gülüstan", 1828 – "Türkmənçay" müqavilələri) Azərbaycan ziyalılarının Avropa mədəniyyəti ilə birbaşa əlaqə qurmasına imkan yaratmışdır. Rusiya vasitəsi ilə Avropa fikir axınları, o cümlədən klassisizmin prinsipləri Azərbaycan intellektual mühitinə tədricən daxil olmağa başlamışdır. Bu dövrdə təhsil almış, maarifçi dünyagörüşünə malik ziyalılar – Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundov kimi şəxslər klassisizmin əsas ideyalarını öz yaradıcılıqlarında təcəssüm etdirmişlər. Azərbaycan klassisizmi Avropa klassisizmindən müəyyən dərəcədə fərqlənir. Əgər Avropa klassisizmi antik dövrün qayda və normativlərinin ətrafında qurulmuşdursa, Azərbaycan klassisizmi Şərq ədəbi ənənələri ilə Qərb rasionallığını birləşdirən sintetik xarakter daşıyır. Mirzə Fətəli Axundov (1812-1878) Azərbaycan klassisizminin ən parlaq nümayəndəsidir. O, Azərbaycan ədəbiyyatında realist dramaturgiyanın banisi hesab olunur. Axundov klassisizmin "üç vahidlik" qanununa ciddi riayət etsə də, əsərlərinə milli koloriti və azərbaycanlıların gündəlik həyatını uğurla daxil etmişdir [7]. Bu dövr Azərbaycan ədəbiyyatının orta əsrlərdən müasir dövrə keçidində mədəni körpü rolunu oynamışdır.

Bioqrafik romanda klassisizmin harmoniyanı və tarazlığı tərənnüm edən ruhu tarixi şəxslərinin həyatı üzərindən açıqlanır və bu da insan fəaliyyətlərində klassik fəzilətlərin davamlı cazibəsini göstərir. Klassisizm burada təkcə bir üslub yox, həm də insanların həyatda tarazlıq axtarışını, tarixdə iz qoymuş şəxslərin həyatı və mirası ilə izah edən düşüncədir. A.Varlamov ədəbiyyat nəhənglərinin və tarixi şəxsiyyətlərin mürəkkəb dəyərlərini vurğulayır: "Yaşanmış ömürlərin təlatümlü hekayətlərində klassik nizam və ölçü idealı müdriklik mayakı kimi ucalır" [3]. Varlamov bioqrafik əsərlərində yalnız qəhrəmanlarının uğur və çətinliklərini təsvir etmir, həm də onların hekayələrinə klassik dəyərləri əlavə edərək göstərir ki, həyatın qarışıqlığı içində harmoniya arzusu həmişə mövcuddur. B.K.Zaytsevə görə, "İvan Turgenyev həyatdan sakit, əzəmətli bir gəmi kimi keçdi. Arxasında isə zamanın silə bilmədiyi bir iz buraxdı. Bu, onun ədəbiyyatdakı itməyən, uzunömürlü, parlayan bir izidir" [4]. Turgenevin bioqrafiyası onun ədəbi yaradıcılığı estetik gözəllik dəyərləri ilə zəngin olduğunu, həm də klassik ənənəyə sadiqliyini açıq şəkildə göstərir. M.A.Bulqakovun "Master və Marqarita" romanını araşdıran B.V.Sokolov əsərin klassik kökləri haqqında yazır: "Bulqakov qədimlə müasir zamanı bir süjetin içində birləşdirərək elə bir bədii dünya yaradır ki, Yerusəlimlə Moskva, Ponti Pilatla Master bir-birinə görünməz tellərlə bağlanır və mənəvi saflıq uğrunda bitməyən mübarizənin simvoluna çevrilir [6]. Bu təhlil tarixi kontekstlə klassik ideallarin əlaqəsini ön plana çıxarır və göstərir ki, Bulqakovun əsəri ədalət, tale və bağışlanma kimi əbədi mövzuları araşdıran klassik ideyaların müasir yozumudur. Bu nümunələr göstərir ki, bioqrafik roman klassisizmin davamlı dəyərlərini araşdırmaq üçün münbit zəmin yaradır. Tarixi hekayələrin harmoniya, tarazlıq və gözəllik prinsipləri ilə birləşməsi yalnız fərdi həyatların təsvirini zənginləşdirmir, həm də insanın ümumbəşəri tarazlıq arzusunu anlamağa imkan verir. Bioqrafiya və klassisizmin sintezi klassik ideallarin aktuallığını vurğulamaqla yanaşı, onlara tarixi sınaqlar və insan psixikasının mürəkkəbliyi içində yol göstərdiyini və harmoniya ilə tarazlığa can atmağın insanlığı əsrlər boyu istiqamətləndirdiyini göstərir.

Bioqrafik romanlarda gözəllik və kamillik idealları əsas yer tutur, qəhrəmanları və hadisələri klassik çalarlarla ifadə edir və qədim fəlsəfi fikirlərlə səsləşir. D.Dilite göstərir ki, antik ədəbiyyatda nəql forması ilə estetik və mənəvi ideallar bir-biri ilə sıx bağlıdır.

## Nəticə / *Conclusion*

Klassisizm yalnız XVII-XVIII əsr Avropa ədəbiyyatının məhdud tarixi mərhələsi deyil, bəşəriyyətin estetik və mədəni təcrübəsinin ayrılmaz, universal tərkib hissəsidir. O, müxtəlif dövrlərdə və mədəni mühitlərdə insanın harmoniyaya, tarazlığa və mənəvi kamilliyə doğru axtarışlarının bədii ifadə forması kimi təzahür edir. Bioqrafik roman janrı klassik prinsiplərin müasir ədəbiyyatda ən məhsuldar şəkildə həyata keçirildiyi sahələrdən biridir. Bu janrda süjetin məntiqi quruluşu, xarakterin mənəvi formalaşması və ümumbəşəri dəyərlərin önə çəkilməsi klassik estetikanın çağdaş şəraitdə yenidən yaşamasına imkan yaradır. Bioqrafik roman, keçmişlə müasirlik arasında körpü quraraq, tarixi şəxsiyyətlərin həyatını zamanın fövqündə duran dəyərlər prizmasından təqdim edir. Klassisizm artıq sadəcə "nizamın estetikası" deyil, əksinə, "insanın harmoniyaya və mənəvi bütövlüyə doğru inkişaf prosesinin tarixi" baxımından dinamik bir hadisə kimi dəyərləndirilir.

Beləliklə, klassisizm və bioqrafik romanın vəhdəti müasir ədəbiyyatda klassik irsin canlılığını və aktuallığını nümayiş etdirir. Bu sintez həm klassik mədəni irsin daha dərindən dərk edilməsinə, həm də müasir ədəbi proseslərin yeni elmi-estetik baxış bucağından təhlilinə şərait yaradır.

## Ədəbiyyat / *References*


1. Axundov M.F. Əsərləri (5 cilddə). – Bakı: Yazıçı, 1986.
2. Bualo. Poeziya sənəti. Fransız klassik dramaturgiyası. – Moskva: Xudojestvennaya literatura. 1987.
3. Dadaşova, S. Molyerin estetik baxışları. Filologiya məsələləri, 2019.
4. Kornel P. Sid. Seçilmiş dram əsərləri, 1957.
5. Lomonosov M.V. Əsərləri, VII cild. – Leninqrad: SSR EA Nəşriyyatı, 1952.
6. Аристотель. Поэтика. Античная эстетика. Искусство, 1974.
7. Варламов А. Мыслю человеческими судьбами. https://foma.ru/myislyu-chelovecheskimi-sudbami.html
8. Зайцев Б.К. Дневник писателя. «Судьба Тургенева» // Зайцев Б.К. Собрание сочинений: В 5 т. Т. 7 (доп.). Святая Русь: Избранная духовная проза, Книги странствий, Повести и рассказы. Дневник писателя. – Москва: Русская книга, 2000.
9. Соколов Б.В. К вопросу об источниках романа М.А.Булгакова «Мастер и Маргарита». Философские науки, 1987. № 12.


## Поэтические принципы классицизма и их проявление в биографическом романе


**Нигяр Исаева**
Институт литературы имени Низами Гянджеви НАНА, диссертант
E-mail: nisayeva82@gmail.com



**Резюме.** В данной статье рассматриваются основные поэтические принципы классицизма как литературно – эстетической системы, возникшей во Франции в XVII-XVIII веках, прослеживаются его философско-культурные корни в древней Греции и Риме, анализируются его более поздние проявления в жанре биографического романа. Классицизм представлен не только как историческое литературное течение, но и как художественное отражение стремления к гармонии, порядку, разуму и духовному совершенству во внутреннем и внешнем мире человека. В статье представлены основные эстетические концепции классицизма – "принцип трех единств" (единое время, пространство и действие), иерархическая структура персонажей в соответствии с их социально-нравственными функциями, концепции мимесиса (подражания) и катарсиса (очищения души), которые подчеркивают

воспитательный характер миссия литературы. Теоретической основой этих принципов является “Поэтика” Аристотеля, а их практическое применение было осуществлено классическими французскими драматургами – Николя Буало, Пьером Корнелем, Жаном Расином и Мольером.
Цель статьи – показать, как классицизм продолжается в жанре биографического романа и как он трансформируется в современной русской и азербайджанской литературе. Основанное на анализе биографических произведений, таких как “Виктор Васнецов” А.Варламова, “Максим Горький”, “Иван Тургенев” Б.К.Зайцева и “Мастер Маргарита” М.А.Булгакова, исследование показывает, как современные писатели трансформировали классические идеалы – гармонию, равновесие, добродетель, и моральное понимание истории в современном контексте. Анализ показывает, что эти писатели не ограничиваются описанием жизни исторических личностей только хронологическими событьями, а скорее подчеркивают отражение классических ценностей в их жизни или то, как из них проистекает нравственный стержень. В частности, в творчестве Булгакова темы истории, совести, справедливости и нравственной чистоты освещаются параллельно с вечными темами классической философской драматургии через образы Понтия Пилата и Мастера.
**Ключевые слова:** классицизм, поэтика, Аристотель, биографический роман, поэтические принципы